# Yeniyetmələrin inkişafında sosial-iqtisadi amillərin rolu

**Hafizə Quliyeva**
*Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı*
**E-mail:** hafiza.guliyeva84@gmail.com

**Rəyçilər:** s.ü.f.d. A. Bağırlı,
f.ü.f.d. E. Bayramzadə

**Açar sözlər:** cəmiyyət, yeniyetmələr, yaş antropologiyası, həyat tərzi, sosial-iqtisadi amillər, yaşayış şəraiti, fiziki inkişaf

**Ключевые слова:** общество, несовершеннолетние, образ жизни, социально-экономические факторы, обстановка жительства, физическая развития

**Key words:** society, teenagers, age antropology, life style, social-economic factors, living conditions, physical development

Müasir dövrümüzdə cəmiyyətimizdə mövcud olan aktual problemlərdən biri də şəxsiyyətin yaşayış şəraitinə adaptasiyası prosesidir və bu aspektdən yeniyetməlik dövrü xüsusi əhəmiyyət kəsb edir. Ətraf mühit insanın yaşayışına əhəmiyyətli təsir göstərir və əks təsirə malikdir. Urbanizasiya prosesinin tədqiqi xüsusi spesifikliyə malikdir və onu göstərir ki, insana təbii amillərlə yanaşı sosial-iqtisadi və antropogen amillər də təsir göstərir [3, s. 131].

Həm etnoərazi qruplarında, həm də şəhər mühitində yeniyetmələrin fiziki inkişafı və böyüməsi prosesinin öyrənilməsi günümüzdə insan orqanizminin yeni ərazilərə uyğunlaşması, əhalinin miqrasiyası, urbanizasiya prosesi zamanı biososial adaptasiyası ilə əlaqəli olaraq xüsusi əhəmiyyət kəsb edir və son 10 ildə cəmiyyətimizdə ənənəvi sosial-iqtisadi proseslərin dəyişilməsi ilə sıx bağlıdır.

Ölkəmizdə yeniyetmələrin fiziki inkişafı ilə bağlı müqayisəli tədqiqatların aparılması ilə bağlı işlər kifayət qədər deyil və demək olar ki yox səviyyəsindədir. Əhalinin əksər hissəsinin paytaxtda yaşaması, rayon və kəndlərdə yaşayış səviyyəsinin aşağı olması, iqtisadi vəziyyətin şəhərlə müqayisədə çox-çox aşağı olması istər-istəməz bu istiqamətdə işlərin aparılmasını vacib edir. Həmçinin bunu da qeyd etməliyik ki, ətraf mühitin əlverişsiz şəraitinə ən çox uşaq və yeniyetmələrin orqanizmi həssasdır. Dəyişən sosial-iqtisadi böhran zamanı yeniyetmə orqanizmində dərin neyro-mənəvi yenidənqurulma prosesi gedir ki, bi da sonradan müxtəlif funksional pozuntulara gətirib çıxara bilir. Bu isə orqanizmin sabitliyini və adaptasiya imkanlarını əhəmiyyətli dərəcədə aşağı salır [4, s. 76].

İnkişafda olan orqanizmin sağlamlıq vəziyyətinin əsas kriteriyası fiziki inkişafdır ki, fiziki inkişafın bu səviyyəsi də ekoloji və sosial-iqtisadi həyat şəraiti ilə sıx bağlıdır. Bu baxımdan da müxtəlif regionlarda və sosial-iqtisadi şəraitdə yaşayan yeniyetmələrin fiziki inkişaf səviyyəsi ilə funksional sistemlərinin vəziyyətinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

İqtisadi vəziyyətin yeniyetmələrə göstərdiyi təsiri öyrənmək məqsədilə biz müxtəlif regionlarda yaşayan və müxtəlif maddi duruma malik ailələr arasında araşdırmalar həyata keçirdik. Apardığımız tədqiqatda bizim tərəfimizdən hazırlanan “Sosiodemoqrafik bilgilər” sorğusundan istifadə olunmuşdur. Sosiodemoqrafik bilgi sorğusunda yeniyetmələrin yaşı, cinsi, ana və atasının təhsil səviyyəsi, ana və atasının ixtisası, yaşadıqları yer, bacı-

qardaşlarının sayı, neçənci uşaq olmaları, ailənin gəliri, qavranılan maddi durumları və s. soruşulmuşdur. Tədqiqat Bakı və Xırdalan şəhəri, Bakı kəndləri və Qəbələ kənd məktəblərində təhsil alan yeniyetmələr üzərində keçirilmişdir [6, s. 13].

Ölkəmizdə kəndlərdə yaşayan ailələrin aylıq gəlir və xərclərinin hesablanması, ailədə kimin işləməsi, şəxsi və ya dövlət işində işləyib işləməməsi, dövlət və ya başqa insanlar tərəfindən maddi yardım alıb almaması və s. hesablanmışdır. Bu tədqiqatda yoxsulluq dərəcəsi yeniyetmənin "ailəsinin maddi durumu ilə bağlı fikirləri (yoxsul, orta, varlı) "ilə" ailəsinin gəlir və xərclərinin qarşılaşdırılması" ölçü olaraq istifadə edilmişdir.

Tədqiqatda yeniyetmənin ailəsinin gəlirləri ilə bağlı fikirləri anketdə bu sual ilə qiymətləndirilmişdir: "Ailənizin gəlir və xərcləri ilə bağlı vəziyyəti necə qiymətləndirirsiniz?

1. Gəlir xərcləri ödəmir
2. Gəlir xərcləri ödəyir
3. Gəlir xərcləri üstələyir".

Alınan nəticələr də maraqlı olmuşdur: yeniyetmələrin yaş ortalaması en aşağısı 12 yaş, en yüksək isə 16 yaş olmuşdur. Bunlardan 59,7%-i oğlan, 40,3%-i isə qız olmuşdur. Tədqiq olunanların 48,6%-i ailəsinin gəlirinin xərclərini ödəmədiyi, 41%-nin ailəsinin gəlirlərinin xərcləri ödədiyi, qalan 10,4%-nin isə ailəsinin gəlirinin xərclərdən daha çox olduğunu qeyd etmişdir. Bundan əlavə, yeniyetmələrin 15%-i ailəsinin maddi durumunun yoxsul, 71%-i orta vəziyyətdə, 14%-i isə varlı olduğunu göstərmişdir. Ailəsinin iqtisadi durumu aşağı olan yoxsul ailələrdə yaşayan yeniyetmələrin 79%-nin fiziki və psixi inkişafında, sağlamlıq vəziyyətində problemlər müşahidə edilmişdir. Onlarda həmçinin özünüqiymətləndirmə səviyyəsinin aşağı həddi, orta dərəcəli depressiya, aqressiya və ünsiyyətdə problemlər aşkar edilmişdir [8, s. 54].

Bundan əlavə, apardığımız tədqiqat işində sosial-iqtisadi amillərin yeniyetmələrin boyuna, fiziki və yaş inkişafına təsiri də öyrənilmişdir. Tədqiqatlar göstərir ki, ümumiyyətlə yeniyetmələrin fiziki inkişafı və boyu genetik (irsi, daxili, endogen) və mühit (sosial, xarici, ekzogen) amillərinin təsiri ilə şərtlənmişdir. Orqanizm və mühit arasında qarşılıqlı əlaqə və təsir daimi deyil və dəyişməkdədir. onlar abiotik (özündə əsas fiziki xüsusiyyətləri birləşdirir), biotik və sosial amillərə bölünür. Insanda məhz sosial amillər biotik və abiotik amillərin təsirini tənzimləyir [2, s. 97].

Yeniyetmənin fiziki inkişafına təsir edən sosial amillərin öyrənilməsi ilə bağlı çoxsaylı tədqiqatlar aparılmışdır [1, s. 9]. Onların əksəriyyəti qeyd edir ki, sosial-iqtisadi amillər (valideynlərin təhsil səviyyəsi, onların peşəsi, ailənin gəliri, yaşayış şəraiti, ailədəki uşaqların sayı, yeniyetmənin ailədə neçənci uşaq olması, uşaqlar arasındakı yaş fərqi, ata və ananın yaşı və s.) bütün inkişaf müddətində yeniyetmənin somatik xüsusiyyətlərinin formalaşmasında mühüm rol oynayır. Tədqiqatçılar əsas amillər sırasında valideynlərin məşğuliyyəti və təhsil səviyyəsini qeyd edirlər [7, s. 11]. Bu göstəricilərə əsasən, ali təhsilli olan və əqli əməklə məşğul olan valideynlərin uşaqları yeniyetməlik dövründə hündür boya və yüksək çəkiyə malik olurlar. Eyni zamanda onlar, xüsusən də qızlar erkən cinsi yetişkənliyə daxil olurlar. Ancaq bu qanunauyğunluq konkret mühit şəraiti ilə bağlı olaraq müxtəlif bölgələrdə fərqli şəkildə ifadə olunur.

Yeniyetmələrin morfoloji xüsusiyyətlərinin tədqiqi ilə bağlı aparılan tədqiqatların yekun nəticələri tədqiqat işimizdə ətraflı şərh olunmuşdur.

Tədqiqatın ilkin materiallarının toplanması gedişatında hər bir tədqiq olunanın sosial-iqtisadi vəziyyətini əks etdirən anket materialları toplanmışdır. Tədqiqat materiallarının təhlili zamanı tədqiq olunan yeniyetmələr yaşayış şəraitini nəzərə almaqla üç qrupa bölünmüşdür: I

qrup yeniyetmələr yaşayış şəraiti pis vəziyyətdə olan evlərdə yaşayanlar, II qrup yeniyetmələr yaxşı şəraitli müasir mənzillərdə yaşayanlar, III qrup yeniyetmələr isə xüsusi məktəblərdə oxuyan imkanlı ailələrin uşaqlarıdır. Bu cür qruplaşma müxtəlif yaşayış şəraitində böyüyən yeniyetmələrin inkişafına sosial amillərin təsirini ayırd etməyə imkan yaradır [2, səh. 13]. Məsələn, III qrupa aid yeniyetmələr I və II qrupa aid yeniyetmələrlə müqayisədə boyunun hündürlüyü və çəkisinə görə statistik olaraq daha böyükdür.

Hər üç qrupdakı yeniyetmələrdə piylənmənin göstəriciləri ilə bağlı böyük fərqlər müşahidə olunmaqdadır. Məsələn, piylənmənin ölçüsü I qrup yeniyetmələrin hər iki cinsində digər qruplara nisbətdə əhəmiyyətli dərəcədə azdır [9, s. 89-93].

Piylənmənin inkişafı dinamikasında həyat tərzindən və yaşayış şəraitindən asılı olmayaraq açıq-aşkar cinsi dimorfizm müşahidə olunmaqdadır. Hər üç qrupdakı qızlarda piylənmə yeniyetməlik yaş dövründə oğlanlara nisbətən artıqdır. Qızlarda piylənmə yaş artdıqca artır, oğlanlarda isə əksinə, 11 yaşdan sonra eyni səviyyədə qalır.

Hər üç qrupdakı yeniyetmələrdə boyun artma dinamikası və xüsusiyyəti normal inkişaf qanunauyğunluqlarına müvafiq inkişaf edir [5, s. 21].

Beləliklə, həyat tərzi və yaşayış şəraitinə görə fərqlənən yeniyetmələrin boyunu, fiziki inkişafını xarakterizə edən bütün tədqiq olunan əlamətlərin müqayisəli analizinin nəticələrinə əsaslanaraq belə bir nəticəyə gəlmək olar ki, sosial-iqtisadi amillər yeniyetmələrin fiziki inkişafına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu xüsusən də uşaqların intensiv böyümə dövrü hesab olunan pubertant dövründə daha çox müşahidə olunur. Daha əlverişli yaşayış şəraiti və sosial şərtlər yeniyetmələrin böyüməsi və inkişafına müsbət təsir göstərir.

**Məqalənin aktuallığı.** Hazırkı şəraitdə cəmiyyətdə mövcud olan aktual problemlərdən biri də şəxsiyyətin yaşayış şəraitinə təsir göstərən adaptasiya prosesidir. Əgər nəzərə alsaq ki, bu prosesə sosial-iqtisadi amillərin təsirə olduqca böyükdür, onda məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə iqtisadi vəziyyətin yeniyetmələrə göstərdiyi təsiri öyrənmək məqsədilə müxtəlif regionlarda yaşayan və müxtəlif maddi duruma malik ailələr arasında aparılan araşdırmaların nəticələrinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də sosioloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası üzrə Minilliyin İnkişaf Məqsədlərinin göstəriciləri// http://www.stat.gov.az/

2. Абрамов М.С. Окружающая среда и физическое состояние населения. Ташкент: Медицина, 1984.

3. Абрамов М.С. Социальная и биологическая обусловленность физического состояния населения: Дис.докт. мед. наук. М., 1982.

4. Абросимова Л.И. Проблемы гигиенического нормирования физических нагрузок детей и подростков // Научные основы гигиены нормирования физических нагрузок для детей и подростков: Сб. научн. тр. М., 1980.

5. Авдеева Р.А., Старых Э. Ф. Юный возраст матерей и показатели развития новорожденных в раннем и неонатальном периодах. Красноярск, 1990.

6. Додонова Л.П. Морфофункциональные особенности организма и развития двигательных качеств у детей в пре-и пубертатном онтогенезе // Теория и практика

физической культуры. 1994, № 7

7. Задорожная Л.В. Влияние социально-экономических факторов на морфо-функциональные характеристики детей и подростков: Автореф. дис. …канд. биол. наук. М., 1998.

8. Duggan MB., Milner RD.: The maintenance energy requirement for children: an astimate based on a study of children with infection associated undenfeeding.- Amer. J. Clin. Nutr. 1986. - Vol. 43, № 6

9. The Significanse of Hair Mineral Analysis as a Means for Assessing Internal Body Burdens of Environmental Pollutants (Rreport of IAEA Coordinated Research Programme, NAHRES-18). Vienna, 1993.

**Х. Кулиева**

## Роль социально-экономических факторов в развитие несовершеннолетних

### Резюме

В статье исследуется социально-экономические факторы, проблемы, семейные доходы, их преобразующие адаптации, которые влияет в развитии и формировании несовершеннолетних.

**H. Guliyeva**

## Development of the juveniles socio-economic role of the factors

### Summary

In the article is investigated social and economic factors, problems, family incomes impacting on development and formation of teenagers and their adaptation to changing economic situation, etc.

**Redaksiyaya daxil olub:** 02.11.2018